# Diaspor fəaliyyətinə dair xəritə
# AZƏRBAYCAN

## Faktlar və rəqəmlər

### Emiqrasiya

**Əhalinin ümumi sayında emiqrantların faiz nisbəti** → **nəfəri Aİ-dədir**




♂ 53.8%
♀ 46.2%




♂ 51.2%
♀ 48.8%

**Pul baratlarının ÜDM-də xüsusi çəkisi:** 5%
**Ölkəyə göndərilən pul baratlarının ümumi məbləği (milyon ABŞ dolları):** 3,950

### Əsas təyinat ölkələri

| | |
|---|---|
| Rusiya | 767 159 nəfər |
| Ukrayna | 83 121 nəfər |
| Qazaxstan | 50 552 nəfər |
| ABŞ | 23 715 nəfər |

### Siyasi hüquqlar

- İkili vətəndaşlıq[1] ☑
- Xaricdə yaşayan Azərbaycan vətəndaşlarının ölkədə keçirilən seçkilərdə səsvermə hüququ təmin olunur[2] ☑
- Xaricdə yaşayan Azərbaycan vətəndaşlarının ölkədə keçirilən səsvermədə iştirak etmək imkanları mövcuddur[3] ☑

Terminologiya: Azərbaycanın millət vəkilləri iki anlayışdan istifadə edirlər: "diaspor" və "xaricdə yaşayan azərbaycanlılar". "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsində bu anlayışların ikisi də nəzərdə tutulub. Bununla belə, həmin Qanunda yalnız "xaricdə yaşayan azərbaycanlılar" anlayışının izahı aşağıda göstərildiyi kimi verilir:

- Azərbaycan Respublikasının vətəndaşları və onların övladları;
- Əvvəllər Azərbaycan SSR-nin və ya Azərbaycan Respublikasının vətəndaşları olmuş şəxslər və onların övladları;
- «Xaricdə yaşayan azərbaycanlılar» anlayışı həmçinin Azərbaycan Respublikasının vətəndaşı olmayan və heç vaxt Azərbaycan Respublikasının vətəndaşı olmamış, lakin etnik, dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü azərbaycanlı hesab edən şəxslərə və onların övladlarına da şamil olunur.

Bəzi hallarda qeyri-rəsmi sənədlərdə diasporu göstərmək üçün "dünya azərbaycanlıları" terminindən də istifadə olunur.

1 "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin vətəndaşlığına mənsubiyyətinin tanınmamasına dair 10-cu maddəsində Azərbaycan Respublikasının vətəndaşı olan şəxsin ikili vətəndaşlığı olduqda, həmin şəxsin xarici dövlətin vətəndaşlığına mənsubiyyətinin, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş və ya Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq surətdə həll edilmiş halları istisna etməklə tanınması bəyan edilib.

2 Azərbaycan Respublikası Seçki Məcəlləsinin Vətəndaşların səsvermədə iştirak etmədikləri hallara dair 16-cı maddəsinin 4-cü bəndində nəzərdə tutulur ki, səsvermə günü xarici dövlətdə Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya konsul idarəsi mövcud deyilsə və ya Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsul idarəsində bu Məcəllənin 35.6-cı maddəsinə uyğun olaraq seçki məntəqəsi yaradılmayıbsa, həmin xarici dövlətdə olan Azərbaycan Respublikasının vətəndaşları səsvermədə iştirak etmirlər.

3 Azərbaycan Respublikası Seçki Məcəlləsinin 35.6-cı maddəsi.

## “Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” Azərbaycan Respublikasının 2002-ci il tarixli Qanunu[4]

Bu Qanun digər məsələlərlə yanaşı xaricdə yaşayan azərbaycanlıların əsas hüquq və azadlıqlarının qorunmasını (2.0.1-ci maddə), xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının dövlət orqanları, eləcə də qeyri-hökumət təşkilatları ilə əlaqələrinin gücləndirilməsini, habelə Azərbaycan Respublikasının daxili və xarici siyasəti, ölkənin iqtisadi, sosial və mədəni həyatı haqqında informasiya ilə təmin edilməsini (2.0.2-ci maddə), xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının dövlət müstəqiliyinin və suverenliyinin qorunmasına və möhkəmləndirilməsinə, eləcə də iqtisadi, sosial və mədəni inkişafına cəlb edilməsini (2.0.3-cü maddə), xaricdə yaşayan azərbaycanlıların milli-mədəni muxtariyyətlərinin və ictimai birliklərinin yaradılmasına yardım göstərməyi nəzərdə tutur (2.0.4-cü maddə).

## Siyasətin və qanunvericilik bazasının ümumi icmalı

**2004-cü il** — **Azərbaycan Respublikasının Dovlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyası** dövlət miqrasiya orqanlarının bu kimi tədbirlərə diqqət yetirməsini nəzərdə tutur: xarici olkələrdə fəaliyyət gostərən Azərbaycan icma və birlikləri ilə sıx əlaqələrin yaradılmasını, Azərbaycan diasporuna komək gostərməyi və xaricdə işləyən və ya yaşayan azərbaycanlıların huquqlarının qorunması üçün diasporun potensialının gücləndirilməsini.

**2002-ci il » 2009-cu il** — **“Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında” Fərman və “Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında” Fərman.** Diasporla İş üzrə Dövlət Komitəsi diasporla iş sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək, eləcə də xaricdə yaşayan azərbaycanlıların əsas hüquq və azadlıqlarının həyata keçirilməsinə, o cümlədən onların öz milli varlığını yaşatmasına və inkişaf etdirməsinə, ana dilini öyrənməsinə və tətbiqinin genişləndirilməsinə köməklik göstərmək üçün yaradılıb. Eyni zamanda, bu komitə xaricdə yaşayan azərbaycanlıların vəziyyəti haqqında informasiyanın toplanmasını, təhlilini, qiymətləndirilməsini və bu məqsədlə xüsusi məlumat bankının yaradılmasını təmin edir.

**2018-ci il** — **“Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı[5]** bunları nəzərdə tutur: ölkənin mənafelərinin müdafiəsinə, milli-mənəvi dəyərləri dünya azərbaycanlılarının qorumasına, daha da inkişaf etdirilməsinə və tanıtmasına, onların milli və vətəndaş hüquqlarının müdafiəsinə yönəlmiş tədbirlərin həyata keçirilməsinə, sosial-iqtisadi, ictimai-siyasi, mədəni-mənəvi problemlərinin həllinə, bu sahədə sosial layihələrin reallaşdırılmasına, habelə Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə və mütəşəkkilliyinin möhkəmlənməsinə dövlət dəstəyinin göstərilməsini.

### Tendensiyalar

Azərbaycan Respublikası Azərbaycan diasporunun beynəlxalq miqyasda səfərbər edilməsini hədəfləyir. Uzun sürən Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın diaspor fəaliyyətinin təşkili və dəstəklənməsi sahəsində siyasətini istiqamətləndirən ən təsirli amillərdən birinə çevrilmişdir. Azərbaycan lobbiçiliyi bu ölkənin dünya və Avropa siyasətlərində mənafelərinin xüsusi çəkisinin və əhəmiyyətinin artırılmasını nəzərdə tutur.

4 Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” Azərbaycan Respublikasının 2002-ci il 27 dekabr tarixli, 413-IIQ nömrəli Qanunu və “Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli, 426-VQD nömrəli Qanunu. Qanunlar bu saytda mövcuddur: http://www.e-qanun.az/framework/1947. Sayta 2020-ci il avqustun 7-də baxılıb

5 “Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli, 170 nömrəli Fərmanı. Bu sənədə 2020-ci il avqustun 7-də baxılıb.

Eyni zamanda, Azərbaycan Respublikası xaricdə yaşayan azərbaycanlıların səlahiyyətlərinin genişləndirilməsi və diasporla şəbəkələrin gücləndirilməsini də hədəfləyir. Bununla əlaqədar olaraq, Diasporla İş üzrə Dövlət Komitəsi 29 Avropa ölkəsini əhatə edən 12 Koordinasiya Şurasını, habelə diaspor üçün müxtəlif tədbirlərə ev sahibliyi edən 10 Azərbaycan Evini xaricdə yaşayan azərbaycanlılarla yaxından əməkdaşlıq etməklə yaradıb. Bununla yanaşı, 2018-ci ildə bu komitə 49 ölkədə fəaliyyət göstərən 560 Azərbaycan diaspor təşkilatının yer aldığı interaktiv diaspor xəritəsini də hazırlayıb. Bundan başqa, 2018-ci ildə işlənib hazırlanmış "Azərbaycan Alimləri Diasporu" İnformasiya Sistemi və həmin il tərtib edilmiş və xaricdə yaşayan azərbaycanlılar haqqında informasiyanın toplanması və paylanması məqsədi daşıyan "Xaricdə yaşayan məşhur azərbaycanlıların bioqrafiyası" (2018) veb-səhifəsi də mövcuddur. Həmin veb-resursların ikisi də mütəmadi olaraq yenilənir.

### Nailiyyətlərin dəyərləndirilməsi

Tanınma: "Diaspor fəaliyyətində xidmətə görə" medal Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 dekabr tarixli, 899 nömrəli Fərmanı ilə təsis edilib.[6] Diaspor fəaliyyəti ilə bağlı xidmətlərin göstərilməsində fərqlənmiş şəxslər bu medalla təltif olunurlar.

## Maneələr

- **Qanunvericilik bazasında çatışmazlıqlar:** Azərbaycanda diaspora dair müfəssəl, uzunmüddətli strategiya mövcud deyil. Ölkədə diasporun cəlb edilməsi formasında sosial kapital, o cümlədən peşəkar bilik, bacarıqlar və təcrübə hələ də lazımi səviyyədə qiymətləndirilməyib.

- **Birlik və kommunikasiyanın yetərli olmaması:** Xaricdə yaşayan azərbaycanlılar fərqli mövqelərdən çıxış etdiyindən və bütün məsələlərdə razılığa gələ bilmədiyindən bu onların birləşməsini, təşkilatlanmasını və vahid güc olaraq fəaliyyət göstərməsini əngəlləyir. Bəzi ölkələrdə Azərbaycan diaspor təşkilatlarının müxtəlifliyi və pərakəndədliyi həmin təşkilatlar və Azərbaycan dövləti arasında əməkdaşlıq imkanlarını məhdudlaşdırır.

## DIQQƏT MƏRKƏZI: səmərəli təcrübə

### "Next Step" İnnovasiya Mərkəzi

"Next Step" Azərbaycanda startap ekosistemini inkişaf etdirmək və dünyanın müxtəlif ölkələrində yaşayan startap iştirakçıları arasında əlaqələri möhkəmləndirmək məqsədi daşıyan startap ekosistemidir. Bu baxımdan Azərbaycan İnnovasiyalar Evi Azərbaycanın startap ekosistemi ilə Silikon Vadisi arasında əlaqələr yaradır. 2020-ci ilin fevral ayında ABŞ-ın Stenford Universitetində Azərbaycan İnnovasiyalar Evinin açılış mərasimi keçirilib.

6 Azərbaycan Respublikasının "Diaspor fəaliyyətində xidmətə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının 3 dekabr tarixli, 1723-VQD nömrəli Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

## Azərbaycan Gənclər Diasporunun Yay Düşərgəsi

GƏNCLƏR

Bu cür düşərgə Azərbaycan Diasporuna Dəstək Fondu ilə birgə təşkil olunur və Azərbaycan dilində ünsiyyət bacarığı olan, eləcə də ölkənin tarix və mədəniyyətinə maraq göstərən (18-29 yaş arasında) gənclər üçün nəzərdə tutulur. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş ilk yay düşərgəsi 2018-ci ildə Şəkidə təşkil olunub, 2020-ci il düşərgəsinin mövzusu isə könüllülükdür. Bu təşəbbüs barədə məlumatlar sosial media şəbəkələrində: "Facebook", "Instagram" və "Twitter"də mövcuddur.

## "MOBILAZE" layihəsi çərçivəsində miqrasiya araşdırmaları üzrə həftəsonu

GƏNCLƏR; TƏHSIL; GƏNCLIK

2016-2019-cu illərdə icra olunmuş "MOBILAZE" layihəsinin məqsədi milli miqrasiya siyasətinin hazırlanması və tətbiq edilməsi üçün Azərbaycan Hökumətinin potensiallarının gücləndirilməsinə xüsusi diqqət ayırmaqla Aİ və Azərbaycan arasında Yerdəyişmə üzrə Tərəfdaşlığı həyata keçirməkdən ibarət idi. Bu layihə çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsi ilə birgə təşkil olunmuş bir neçə araşdırma üzrə həftəsonu tədbirlərdə miqrasiya problemləri ilə əlaqədar mövzulara, o cümlədən miqrasiya və inkişaf mövzusuna xüsusi diqqət ayrılırdı. Bu cür həftəsonu tədbirləri miqrasiya ilə əlaqəli sahələrdə çalışan gəncləri hədəfə götürərək Azərbaycan kontekstində miqrasiyadan irəli gələn inkişaf imkanları barədə məlumatlılığın artırılması məqsədi daşıyırdı.

## "Avropadan qayıdan Azərbaycan vətəndaşlarına reinteqrasiya dəstəyi (RESTART)" layihəsi (2019–2021-ci illər)

QAYIDIŞ VƏ REINTEQRASIYA

Aİ-nin bir neçə üzv dövləti (Almaniya, Niderland və Polşa) tərəfindən birgə maliyyələşdirilən və MSİBM-nin həyata keçirdiyi bu layihə Azərbaycan vətəndaşlarının Avropa İttifaqının üzv dövlətlərindən davamlı qayıdışını və reinteqrasiyasını aktiv şəkildə asanlaşdırmaq üçün Azərbaycanda dövlət orqanlarının və vətəndaş cəmiyyətinin reinteqrasiya sahəsində potensiallarını gücləndirməklə Readmissiya Sazişinin icrasını dəstəkləmək məqsədi daşıyır.

## Dünya Azərbaycanlılarının Qurultayı

GƏNCLƏR; ŞƏBƏKƏLƏNMƏ

Qurultay diaspor liderləri arasında müzakirələr üçün platforma rolunu oynayır. Qurultay soydaşların hüquq və azadlıqlarının müdafiəsi, diaspor təbliğatı və lobbiçiliyi üçün tədbirlərin həyata keçirilməsi, Azərbaycan diaspor hərəkatında gənclər üçün strategiyanın hazırlanması, siyasi həyatda və diaspor üçün vacib mövzularda təmsil olunma istiqamətində işlər aparır. Dünya Azərbaycanlılarının I Qurultayı 2001-ci ildə, növbəti qurultaylar isə, müvafiq olaraq, 2006, 2011 və 2016-cı illərdə keçirilb. 4-cü qurultay zamanı 49 ölkədən 500 nəfər diaspor nümayəndəsi və qonaq bir araya gəlib.[7] Qurultaylar zamanı illik iclaslar keçirməyi öz qarşısına məqsəd qoyan və İcraçı katib tərəfindən idarə olunan Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası seçilir. Bu şuranın İcraçı katibi funksiyaları Diasporla İş üzrə Dövlət Komitəsinin sədrinə həvalə olunur.

7 Report. Az "Dünya Azərbaycanlılarının IV Qurultayı Bakıda öz işinə başlayıb", 2016-cı il. Məlumat bu saytda mövcuddur: https://report.az/en/diaspora/iv-congress-of-world-azerbaijanis-opens-in-baku/. Sayta 2020-ci il avqustun 4-də baxılıb.

# Əlavə:

# Əsas əlaqədar tərəflərin siyahısı

## Diaspor məsələləri ilə məşğul olan orqanlar

- **Regional səviyyədə**

**Azərbaycan Respublikasının Prezidenti** (1991-ci il)

2002-ci ildə Azərbaycan Respublikasının mərhum Prezidenti, ümummilli lider Heydər Əliyev “Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında” Sərəncam imzalayıb.

  - **Nazirlik səviyyəsində**

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi** (1991-ci il)

XİN azərbaycanlıların xaricdə hüquq və mənafelərinin təşviqini təmin edir.

  - **Komitə/xidmət səviyyəsində**

**Azerbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi** (2008-ci il)[8]

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tabe olan bu hökumət qurumu Azərbaycan diaspor təşkilatları ilə əlaqələrin qurulması və həyata keçirilməsini təmin edir və dünya azərbaycanlıları tərəfindən milli birlik istiqamətində göstərilən səyləri dəstəkləyir. Beş şöbədən, o cümlədən dünyanın regionları – Rusiya və MDB ölkələri, Avropa ölkələri, Asiya ölkələri, ABŞ və Kanada üzrə ərazi şöbələrindən, üstəgəl Gürcüstanda yaşayan azərbaycanlılarla iş üzrə əlavə ərazi şöbəsindən ibarət Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi mərkəzi icra hakimiyyəti orqanıdır. Komitənin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən Komitənin sədri rəhbərlik edir.

**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi** (2012-ci il)

Bu agentlik Azərbaycan diaspor təşkilatlarının innovasiya potensialına xüsusi diqqət ayırır. 2019-cu il fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi arasında Anlaşma Memorandumu imzalanıb. Xaricdə yaşayan azərbaycanlılara müvafiq dövlət xidmətlərinin səyyar formada göstərilməsi istiqamətində birgə tədbirlərin təşkili Memorandum çərçivəsində nəzərdə tutulur. Həmçinin əməkdaşlıq istiqamətlərinə xaricdə yaşayan azərbaycanlıların hüquq və qanuni mənafelərinin müdafiəsi, eləcə də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına yönəlmiş hüquqi maarifləndirmə və təbliğat işlərinin aparılması məqsədilə ASAN Radionun və Azərbaycan Diasporuna Dəstək Fondunun fəaliyyətinin əlaqələndirilməsi daxildir.[9]

8 http://www.e-qanun.az/framework/17528
9 Bu saytda mövcuddur: http://vxsida.gov.az/en/article/1130. Sayta 2020-ci il avqustun 7-də baxılıb.

- **Yerli səviyyədə**

**Azərbaycan Diasporuna Dəstək Fondu (ADDF)** (2018-ci il)

Azərbaycan Diasporuna Dəstək Fondu Azərbaycan Respublikasında həyata keçirilən islahatların və əldə olunmuş nailiyyətlərin dünyaya bəyan edilməsinə, ölkənin mənafelərinin müdafiəsinə, dünya azərbaycanlılarının milli-mənəvi dəyərlərinin qorumasına, daha da inkişaf etdirməsinə və tanıtmasına, xaricdə yaşayan azərbaycanlıların milli və vətəndaş hüquqlarının müdafiəsinə yönəlmiş tədbirlərin həyata keçirilməsinə, lobbiçilik fəaliyyətinin güclənməsinə, bu sahədə sosial layihələrin reallaşdırılmasına, habelə Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə və mütəşəkkilliyinin möhkəmlənməsinə dövlət dəstəyini təmin edən publik hüquqi şəxsdir.

**Heydər Əliyev Fondu** (2004-cü il)

Fond Azərbaycanın mədəni irsinin geniş təbliğini və Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılmasını öz qarşısına məqsəd qoyur.

## Avropada Azərbaycan diaspor təşkilatları

**Zentralrat der Aserbaidschanischen Diaspora in Deutschland (ZADD e.V)**
[İng.: Almaniyada Azərbaycan Diasporunun Mərkəzi Şurası] (Almaniya, 2017-ci il)

Təşkilatın hazırkı statusu: fəaliyyətdədir

### İnteqrasiya fəaliyyəti

Mərkəzin məqsədi Almaniyada yaşayan azərbaycanlıların inteqrasiyasını təkmilləşdirmək, onların həyatın bütün sahələrinə çıxış imkanlarını praktiki kömək və dəstək sayəsində artırmaq və diaspor mənafelərini təmsil etməkdir. Eyni zamanda, bu mərkəz Almaniya əhalisi arasında Azərbaycan mədəniyyəti, musiqisi, tarixi və siyasətini təbliğ etməyi də öz qarşısına məqsəd qoyur.

**Avropa Azərbaycanlıları Konqresi (AAK)** (Belçika, 2004-cü il)

Təşkilatın hazırkı statusu: fəaliyyətdə deyil

### İnkişaf fəaliyyəti

AAK rəsmən Belçikada yerləşir. AAK əsasən Azərbaycan lobbiçiliyinin təmin edilməsi istiqamətində işlər aparır. AAK-ın 2004-cü ildə keçirdiyi konfransa Ukrayna, Rusiya Federasiyası, Belarus, İsveç, İsveçrə, Norveç, Danimarka, Finlyandiya, Belçika, Avstriya, Niderland, Fransa, İspaniya, Çexiya, Polşa, Rumıniya, Macarıstan, Bolqarıstan, Almaniyadakı Azərbaycan icmaları və diaspor təşkilatlarının nümayəndələri, həmçinin ABŞ, Özbəkistan, Qazaxstan və Qırğızıstanda fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin rəhbərləri qatılıb. [ f ] [ t ]

**Müəllif:** Dr.Olqa R. Qulina
**Redaktor:** EUDiF
sentyabr 2020-ci il
2023-cü ilin dekabrında yenilənib

RUSMPI UG Institute on Migration Policy
Think Globally. Listen Properly. Act Comprehensively

Implemented by ICMPD International Centre for Migration Policy Development

Funded by the European Union